# Mükafat təqdim edildi



**Mayın 6-da Rəşid Behbudov adına Mahnı Teatrında Mədəniyyət və Turizm Nazirliyinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümünə həsr edilmiş tədbirlər planı çərçivəsində təsis etdiyi "Qızıl kəlmə" ədəbi mükafatının təqdimetmə mərasimi keçirilmişdir.**

2008-ci ilin iyulundan elan olunmuş mükafata 4 nominasiya üzrə 38 adda əsər təqdim edilmişdir. Onlardan 12-si nəsr, 12-si poeziya, 11-i publisistika və ədəbi tənqid, 3-ü isə tərcümə əsəri olmuşdur. 7 müəllif mükafata layiq görülmüş, 2 müəllifə isə "Şans ödülü" həvəsləndirici mükafatı verilmişdir.

Mükafat komissiyasının sədri, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev təqdimetmə mərasimində çıxış etmiş, bu təşəbbüsün Azərbaycanda ədəbi prosesin dəyərləndirilməsinə müəyyən bir təkan verəcəyini vurğulamışdır: "Qeyd etmək lazımdır ki, cənab prezident İlham Əliyev mədəniyyətimizə göstərdiyi diqqət və qayğı ilə ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir. Dövlət başçısının mədəniyyətin inkişafı yönündə imzaladığı sərəncamlar, verdiyi fərmanlar bu sahənin daha da çiçəklənməsinə xidmət edir. O da danılmazdır ki, ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanın müasir, çağdaş, klassik ədəbiyyatı ciddi şəkildə forma-



Aqil Abbas



Elçin Hüseynbəyli



Zakir Fəxri



laşmağa başladı. Bu gün biz bu siyasətin məntiqi davamı olaraq çalışırıq ki, müstəqil Azərbaycanımızın ədəbi prosesinin inkişafını təmin edək, əsasən də oxucuların maraqlarını qoruyaq. Bu baxımdan da nazirlik uğurlu tərcümələri, yeni nəşrləri və layihələri, yaradıcı axtarışları dəstəkləyir".

Tədbirdə Milli Məclisin üzvü, filologiya elmləri doktoru, professor Nizami Cəfərov mükafat komissiyasının üzvləri adından çıxış etmişdir. O, ölkədə aparılan əzəmətli quruculuq işləri ilə yanaşı, dövlət başçısı İlham Əliyevin mədəniyyət, ədəbiyyat və incəsənət adamlarına xüsusi diqqət ayırdığını ulu öndər Heydər Əliyev siyasətinin davamı və təntənəsi kimi qiymətləndirmişdir.

Sonra mükafatların təqdimat mərasimi başlamışdır. Publisistika sahəsində "Qızıl kəlmə" mükafatının ilk qalibi "Görkəmli adamların həyatı" seriyasından olan "Heydər Əliyev" əsərinə görə yazıçı-dramaturq **Hüseynbala Mirələmov** olmuşdur. Mükafatı qalibə komissiyanın sədri, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev təqdim etmişdir.

Məhz bu əsərinə görə aldığı "Qızıl kəlmə" mükafatının onun həyatında çox əlamətdar bir hadisə olduğunu vurğulayan yazıçı Hüseynbala Mirələmov, ümummilli lider Heydər Əliyevin onun taleyində həmişə böyük rolu olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırmışdır: "Mən bu mükafatı ulu öndər Heydər Əliyevdən yazdığım əsərə görə aldığım üçün böyük qürur hissi keçirirəm" - deyə H.Mirələmov çıxışını tamamlamışdır.

Nəsr sahəsində yazıçı **Aqil Abbas**a "Dolu" romanına, yazıçı - dramaturq **Elçin Hüseynbəyli**yə "On üçüncü həvari - Don Juan" romanına, poeziya sahəsində şair **Zakir Fəxri**yə "Qalmaz belə, qalmaz dünya" əsərinə, **Taleh Həmid**ə dördcildliyinin iki cildinə, bədii tərcümə sahəsində **Saday Budaqlı**ya M.Bulqakovun "Master və Marqarita" romanına, **Məmməd Oruca** G.Lətifxanın "Azər və Aida" romanının tərcüməsinə görə "Qızıl kəlmə" mükafatı təqdim olunmuşdur.

**Yunus Oğuz** "Nadir şah", **Səlim Babullaoğlu** isə "İlyas Göçmənin şəkil dəftəri" əsərlərinə görə həvəsləndirici "Şans ödülü" mükafatına layiq görülmüşdür.

Mərasim tanınmış müğənnilərin çıxışı ilə başa çatmışdır.



Taleh Həmid



Yunus Oğuz



Səlim Babullaoğlu

**● A.ƏLİYEVA**